


**...12 il əvvəl, iyunun 18-dən 19-na keçən gecə Tərtər rayonunun Çaylı kəndi yaxınlığında 22 yaşlı gizir Mübariz İbrahimov döyüş növbəsində olduğu vaxt düşmən tərəfindən atəşkəs rejiminin pozulması nəticəsində başlanan atışmada şəxsi rəşadət nümayiş etdirdi. Mübariz təkbaşına təmas xəttinin bir kilometrlik minalanmış sahəsini keçərək qəfil həmləsi ilə Ermənistan ordusunun çox sayda əsgər və zabitini məhv edir. Sonra isə düşmənin öz silahlarından onun özünə qarşı istifadə edərək 5 saat təkbətək döyüşür. Düşməni çox ağır itkilərə məruz qoyur. Azərbaycan döyüşçüsü səhərə yaxın qeyri-bərabər döyüşdə qəhrəmancasına şəhid olur. Azərbaycan Prezidenti İlham Əliyev Mübariz Ağakərim oğlu İbrahimova ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adının verilməsi barədə Sərəncam imzalamışdır. Gizirə bu ad Azərbaycan Respublikasının müstəqilliyinin və ərazi bütövlüyünün qorunub saxlanılmasında müstəsna xidmətinə və göstərdiyi rəşadətə görə verilib.**



# Rəşadət rəmzi

## İyunun 18-də Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimov şəhidlik zirvəsinə yüksəlib

Mübarizin şəhid adı ən uca addır. Şəhidliyin, qəhrəmanlığın məkanı, zamanı olmur. Şəhidlər xalqın kimliyini, mənliyini qoruyub işıqlı sabahımıza boylanan azadlıq pöhrələri, yüksəlişə, ucalığa can atan könül dünyamızdır. Heç kimə bənzəmədən öz ömrünü ömürlərə - Vətənə bağışlayan oğullardı qəhrəmanlar.

Hər bir Vətənpərvər insanın yüksəlmək istədiyi şəhidlik zirvəsini fəth etdi. Mübariz İbrahimovla Azərbaycanda Vətənpərvərliyin yeni dalğası yayıldı. Qəhrəman Azərbaycan övladının nümayiş etdirdiyi rəşadət ölkədə ona bənzəmək istəyənlərin sayını artırdı. Mübarizin qəhrəmanlığı ölkə sərhədlərini aşdı. Qardaş Türkiyədə, digər türkdilli ölkələrdə Mübariz İbrahimov haqqında qəhrəmanlıq nümunəsi kimi film çəkilməyə başladı.

Tarixə səs salan, yatan ruhlarımızı oyadan bu qəhrəmanlıq ürəklərdə iz qoyur. Ana tarix misli-bərabəri olmayan bir qəhrəmanlığın şahidi olur. Cəmi 22 illik ömür yaşamış bu cəngavər, ölməz Vətən oğlunun hünəri, igidliyi ata-anasına, qardaşlarına, qohumlarına, dost və tanışlarına, Azərbaycan xalqına, bütün türk dünyasına sonsuz başucalığı gətirir...

Əliabad kəndi Biləsuvar rayonunun abad yaşayış məntəqələrindən, Mübarizin göstərdiyi yenilməz hünərə qədər adi kəndlərdən biri idi. Artıq 12 ildir ki, Əliabad kəndini bütün türk dünyası tanıyır. Bu kənddəki tam orta məktəb Mübarizgilin evindən çox uzaq deyil. Elə Mübariz də bu məktəbdə təhsil alıb. Müəllimləri və sinif yoldaşları danışırlar ki, Mübariz adi bir uşaq deyildi. İntizamlı, ədəb-ərkanlı, ancaq qaynar bir uşaq idi. Dərslərini də yaxşı oxuyurdu. O, orta məktəbin yuxarı siniflərində oxuyanda artıq Qarabağ müharibəsi başlamışdı. Torpaqlarımız işğal olunmuşdu. Həmin rayonlardan olan soydaşlarımız qaçqın həyatı yaşayırdılar. Doğma yurd-yuvalarından olmuşdular. Mübariz isə bu hala heç cür dözə bilmirdi. "Bircə əsgərlik vaxtım tez çatsaydı", - deyirdi. O gün də gəlib çatdı. Mübariz hərbi xidmətə yollandı. Daxili Qoşunlarda xidmət edirdi. İki il beləcə keçir. Mübariz bir Vətən əsgəri kimi bişib-bərkiyir, hərbi biliklərə yiyələnir. 2007-ci ildə hərbi xidmətini çavuş kimi başa vurur. Ata-anası sonbeşik övladlarının uca boyuna, möhkəmlənmiş əzələlərinə fərəhlə baxırlar. Əsgər paltarını soyunan Mübariz bir müddət mülki işlərdə çalışır, təsərrüfatda valideynlərinə kömək edir. Ancaq bu, çox çəkmir. Hər gün eşitdiyi cəbhə xəbərləri onu narahat edir. Və Mübariz qəti qərarını verir: "hərbi xidmətə qayıtmalıyam. Mən hələ düşmənlərə öz sözümü deməmişəm...".

Ata-anasını razı salır, yenidən hərbi forma geyinən Mübariz öz arzusu ilə cəbhə bölgəsindəki hərbi hissələrdən birində xidmətə başlayır. Hər gün rastlaşdığı hadisələr onun nankor qonşularımız olan ermənilərə nifrətini daha da artırır. Mübariz daha dözə, əsəblərini cilovlaya bilmir. Çoxdan beynində dolaşan fikirləri, ürəyində gəzdirdiyi son qərarını bir daha götür-qoy edir. Hərbi hissənin bir sakit küncünə çəkilib ata-anasına sonradan bütün türk dünyasına səs salacaq kiçik məktubunu yazır: "Canım atam və anam. Məndən sarı darıxmayın. İnşallah, cənnətdə görüşəcəyik. Mənim üçün bol-bol dua edin.Vətənin dar günündə ürəyim artıq dözmür. Allaha xatir bunu etməliyəm. Ən azından ürəyim sərinlik tapar. Şəhid olanacan bu şərəfsizlərin üzərinə gedəcəyəm. Şəhid olsam, ağlamayın. Əksinə, sevinin ki, o mərtəbəyə yüksəldim. Allaha ibadətlərinizi dəqiq yerinə yetirin. Çoxlu sədəqə verin. Seyid nəvəsi olaraq bunu etməliyəm. Allah böyükdür. Vətən sağ olsun. Oğlunuz Mübariz... Haqqınızı halal edin".

Öz qəhrəmanlığı ilə düşmən tərəfini sarsıltmış igid Mübariz İbrahimovun cəsədi bir neçə aydan və uzun danışıqlardan sonra geri alınaraq torpağa tapşırılır. Elin qəhrəman, Mübariz oğlu ikinci Fəxri Xiyabanda dəfn olunur. Məzarı xalqın ziyarət yerinə çevrilir. 2010-cu il noyabrın 7-də Mübariz İbrahimov və Fərid Əhmədovun vida mərasimində iştirak edən Prezident İlham Əliyev demişdir: "Bu gün çox kədərli bir gündür. Eyni zamanda, çox şərəfli bir gündür. Mübarizlə Fərid Vətən uğrunda öz torpağında həlak olmuşlar. Onlar əsl qəhrəmanlıq, rəşadət göstərmişlər. Mübariz İbrahimov qeyri-bərabər döyüşdə 5 düşməni məhv edərək, 3-nü yaralayaraq şəhid olubdur. Mübariz yaxşı bilirdi ki, o döyüşdən sağ-salamat çıxa bilməyəcək. Ancaq Vətən, torpaq sevgisi, onda olan vətənpərvərlik ruhu onu şəhidlik zirvəsinə ucaltdı. Mübariz bütün gənclər üçün örnəkdir, nümunədir".

**Müşfiq MİRZƏ,**
**"Respublika".**